## *Ağlama, torpağım, ağlama...*

### *oratoriya*

***XOR:***
Vətən qalxıb ayağa, Vətən ayaq üstədi,
Bir səngərə çevirib dərəsini, dağını:
Qoruyun igidlərin bu mərdlər torpağını.

Reçitativ:
Ahımı dağlara göndərmə, qardaş,
Bizim zirvələrə ahımız çatmır.
Ahımı dağlara göndərmə, qardaş,
Uzaq mənzillərə oxumuz çatmır.

Biz öz başımıza kül əndərmişik,
Ümid özgələrin sözünə qalıb.
Dağlara o qədər ah göndərmişik,
Dağımız dərdlərə xəzinə olub.

Evindən didərgin, yurddan qovulan
Yersizi mən hansı yerə göndərim?
Çəkilib quruyan, yanıb qovrulan
Xəzərin ahını hara göndərim?

Dünyanın kədəri ahıma dolsa,
Məni qəm dağına qaldıracaqdır.
Bu bəxt ki, bizdədir, ahım od olsa,
Özgə çırağını yandıracaqdır!

Həmzələr Qıratı elə çapır ki,
Koroğlu ahıyla döndərə bilmir.
Kərəm bir ah çəkib elə yanır ki,
Odunu illər də söndürə bilmir.

Ac qaldıq içində dövlətin, varın,
Dadını duymadıq hər şirin sözün.
Ah çəkib Bakıdan gedən qatarın
İstisi özgənin, tüstüsü bizim!

Sərhəd məftiliylə əlimiz bağlı,
Halal torpağıma yadlar göz tikir.
Bölünmüş millətin sinəsi dağlı,
Bu tay köks ötürür, o tay ah çəkir.

Qarabağ kim üçün yağlı bir tikə,
Onu qorumağa canlı hasarıq.
Bu qəm dəryasında ah çəkə-çəkə

Biz Məcnun olarıq, Babək olmarıq!...

Ahımı dağlara göndərmə, qardaş,
Bizim zirvələrə ahımız catmır.
Ahımı dağlara göndərmə, qardaş,
Uzaq mənzillərə oxumuz catmır!..

Xor :
Vətən qalxdı ayağa, Vətən ayaq üstədi,
Bir səngərə çevrildi hər dərəsi, hər dağı
Babək qalxıb məzardan Ana yurdu səslədi:
Qoruyun igidlərim, qoruyun bu torpağı!..

I

Yatmayıbdır yurdumun evləri, küçələri,
Belə qəmli olmayıb yurdumun gecələri.
Hər oğul bu diyarın bir silahsız əsgəri,
Ürəkləri titrədir güllə, mərmi səsləri...

Hücum çəkir üstünə zirehlilər alayı,
Mərmilərdən  güclüdür anaların harayı.
Torpaqdan güc alanlar torpağı qucurdular,
Qeyrəti qanad edib ölümə uçurdular.

İgidlərin son andı, son sözü Vətən idi,
Silahlıya silahsız döyüşmək çətin idi.
Güllələr son mənzilin yaşına baxmayıbdı,
İgidləri səngərdən qeyrət buraxmayıbdı.

Zülmün əli silahlı, haqqın əli yalındı,
Qan üstündən yeriyib şəhərə yol salındı.
Güllələr susdurmadı yenə haqqın səsini,
Xalqım unutmayacaq o yanvar gecəsini!

Reçitativ:
...Göylər də qırmızı boyandı birdən,
Uzaq üfüqlərdə dan sökülürdü.
Gecə əllərini üzürdü yerdən,
Ölgün əllərindən qan tökülürdü!...

II

Ağılar, oxşamalar:

Qarşı yatan ulu dağlar,
Bilirsənmi nələr oldu?
Göz yaşıyla dolun, dağlar.
İgidlərim ölər oldu.

Bu torpağın balasıydı,
Namus, qeyrət qalasıydı,
Bir gül kimi açılmışdı.
Gül kimi də solasıydı.

Boyuna qurban, qardaş,
Boyunu yer aparır.
Toyuna qurban, qardaş,
Toyun şivən qoparır.

Əzizim daşın ağlar,
Atam, qardaşım ağlar.
Oğul doğdum. Daş gəldi.
Yandı göz yaşım ağlar...

Reçitativ :
Bir ömürdür, tale özü böləcək,
Vaxtlı, vaxtsız bir ölümdür gələcək.
Açıq qalan gözlərimsə görəcək,
Qapamayın gözlərimi, amandır!

Baxacağam yurdumun dan üzünə,
Tarixində quruyan qan izinə,
Gözüm dönər bir tufan dənizinə,
Qapamayın gözlərimi amandır!

Bir cüt çiçək gözlərimdir, baxacaq,
Zirvələrə izlərimdir, çıxacaq.
Bir bulağa qoşularaq axacaq,
Qapamayın gözlərimi, amandır!

Ulduzlara qoşularaq hər gecə,
Dönəcəkdir göy üzündə nərgizə.
Ana yurdum gözəlliyə sərgisə, -
Qapamayın gözlərimi, amandır!

Ay dolanıb, qovuşanda il-ilə,
Görəcəyəm Araz axır gül ilə,
Bir sıyrılmış qılınc qoyun qəbrimə,
Qapamayın gözlərimi, amandır..

III

Ölənlər torpağındır, bizə sağlar qalıbdır,
Baxıb köks ötürməyə qarlı dağlar qalıbdır,
Bir gözümüz gülürsə, biri ağlar qalıbdır,
Sil gözünün yaşını, ürəkləri dağlama,
Ağlama, torpağım, ağlama!

Bir torpağın üstündə o taylı, bu taylıyıq,
Yolumuz irəlidir, yerimizdə saymayaq.
Bir yumruqtək birləşib biz haqqı haraylayaq!
Ucalt haqqın səsini, de sözünü, saxlama,
Ağlama, torpağım, ağlama!

Bəlkə bənövşəmizi bu niskil, həsrət əyir,
Torpağı qorumağa Vətən oğul istəyir;
Qarşı gələn illərdən səadət gülümsəyir,
Unut kədəri, qəmi,
Dur ayağa “Vətən” de,
Vətən çağırır səni!...

Kəsəmənli N. Ağlama, torpağım, ağlama... : oratoriya // Ədəbiyyat və incəsənət. – 1990. – 2 mart. – S. 4.